# Onun adı Darxan

**Aida Eyvazlı Göytürk**

**(əvvəli ötən sayımızda)**

***Akedil də təəccüblə: 'Doğurdan da, bu böyük çöllərdə bu gölü tək bir kişi necə və kimdən qoruya bilər?". Bir də ətrafa baxdıq ki, naməlum adam gözə görünmür. Naməlum adamı görməyəndə Akedil belə dedi:***

***-Heç bilmədim ki, bu kişi bizim gəlişimizin məqsədini haradan bilir. Ayrılanda dedi ki, siz gözəl niyyətlə gəlmisiniz. Sizin bütün istəkləriniz qəbul olacaq. Yanındakı o ağbəniz oğlan çox gözəl niyyətli bir adam. Burada bütün muradınız hasil olacaq. Tanrının burada bir xəzinəsi var. Geniş bir ərazidə o görünən obalıqda böyük bir xəzinə tapacaqsınız. Monqolustandakı bütün istəkləriniz yerinə gələcək. Tanrı sizin bütün istəklərinizi yerinə yetirəcək".***

***Bu xatirəsini danışandan sonra, Darxan onu da əlavə etmişdi: 'Bəlkə də hardasa bir məclisdə, şəhərdə, kənddə kimsə bizə belə xəbər söyləsəydi, inanmazdıq. Ancaq böyük bir çöllükdə, inscinsin gözə dəymədiyi bir yerdə üç nəfər kişinin yanında peyda olan o naməlum adamın xəbəri məni hər zaman düşündürdü... Çünki bu torpaqların, bu yurdun müqəddəs olduğuna qəlbimin dərinliyində güclü bir inam var idi. O yerlər bizi çoxdan gözləyirdi".***

## Kutluq Xaqanın iqamətgahının tapılması çox böyük bir iş oldu

2016-cı ilin avqust ayında BTA Monqolustan Milli Elmlər Akademiyası Arxeologiya və Tarix İnstitutu "Tyan-Şandan-Ötükenə qədər: Böyük çöl xalqlarının tarixi-mədəni dəyərləri"- adlı beynəlxalq ekspedisiyanın tərkibində 50-dən artıq arxeoloq, ictimai xadim, alim və jurnalistləri də bu müqəddəs yerlərə ziyarətə və səyahətə gətirdi. O sehirli günlərdə bizimlə eyni ekspedisiyada yol yoldaşı olmuş, Napil Bazılxan da bizimlə idi. Napil Bazılxan Monqolustandakı çöllərdə başsız qalan daş yazıları oxuyan tək-tək alimlərdəndir. Napil ağa Darxan Kıdıralı şəxsiyyətini və onun BTA-da çalışdığı illər ərzində gördüyü işləri belə xatırlayır:

"2014-cü ildə Darxan Kıdıralının Monqolustan Elmlər Akademiyası ilə əməkdaşlıq etmək fikrindən xəbər tutdum. Mən özüm Monqolustanda doğulmuşam. Atam Bazılxan Buqat oğlu da qədim türk yazılarını oxuyurdu, dilçi alim idi. Türk dünyasının bizə qalan miraslarını araşdırmaq üçün ən doğru yol Monqolustan Elmlər Akademiyasından keçir. TWESCO-da əməkdaşlığa başladığım gündən Darxan Kıdıralının rəhbərliyi ilə Monqolustan Elmlər Akademiyası, Arxeoloji İnstitutu, Milli Muzeyi və digər elm mərkəzləri ilə 10-dan çox Bəyannamə imzalandı. Göy türklərin ikinci dəfə Xaqanlıq qurduğu Şvieet Ulaan, Koşotsaydam, Gunbürd, Qaya qudag, Nomgon anıt külliyələrində araşdırmalar başlandı.

Qədim türk abidələrini sətir-sətir, daş-daş kitaba çevirən Napil Bazılxan 2022-ci ildə BTA-nın imza atdığı o möhtəşəm tapıntıdan -İltəriş Xaqanın külliyəsinin tapılmasından danışır:

-Beynəlxalq Türk Akademiyası və Monqolustan Elmlər Akademiyası Arxeologiya İnstitutunun birgə apardığı elmi arxeoloji tədqiqatlar nəticəsində ötən il 2022-ci ilin yazında Arxanqay bölgəsinin Nomqon düzündə İltəriş Xaqana məxsus külliyə (abidə kompleksi) aşkar edildi. Kutluq Xaqanın iqamətgahının tapılması çox böyük bir iş oldu. Hələ 2015-ci ildə professor Darxan Kıdıralı ilə Nomonqon düzündə gəzərkən hocamız deyirdi ki, biz burada axtardığımızı tapacağıq. 2019-cu ildə gəlib bir yerdə dayandı. Dedi ki, buradan başlarsınız. Bir neçə ay arxeoloji qazıntılarımızı davam etdirdik. Avqust ayının əvvəlində bir yazılı daş tapdıq. Bu daş kitab Kutluq xaqan adına yazılmışdı. Monqolustanın Arxanqay bölgəsindən Darxan Kıdıralıya telefon açdıq. Yeni daş kitabə tapdığımızı bildirdik. Bərk-bərk tapşırdı ki, sirr kimi saxlayın, kimsəyə deməyin. Bilirsiniz də o yerlər necə gözəl və təbiəti, havası dəyişkəndir. Adətən avqust ayında buralara yağış yağmaz. Lakin həmin gün ki, Darxan bəyi qarşılayacaqdıq, göydən yağışı elə bil ki, xəlbir ilə tökürdülər. BTA rəhbəri , professor Darxan Kıdıralı maşını ekspedisiyanın yerləşdiyi çadırın yanında saxlatdı. Gəlib bizim dayandığımız yerə yetişəndə soruşdum ki, niyə arabanı buraya sürdürmədiniz? Dedi ki, Böyük Xaqanın hüzuruna ayaqla gəlmək lazım idi. Tapdığımız daş kitabəyə çatanda dayandı. Onun ruh halını görmək lazım idi. Bu kəşf etmək, tapmaq sevinci idi. İnsanın bu ruh halını yalnız həmin sevinci yaşayanlar bilər. Yağmur elə yağır ki... Darxan bəy dedi ki, mən qurban kəsməliyəm. Özü Kutluq Xaqanın adına bir qurban kəsdi. Yağış həmən dayandı. Ətrafdakı bütün dolu buludlar çəkildi. Ənginliklər sanki öz qollarını açıb bizi qucaqlamışdı. Uzaqlardakı Arxanqay dağları da sevinirdi.

Böyük alim Napil Bazılxan bu hadisəni danışdıqda Ziya Göyalpı xatırlayıram. Ziya Göyalp dədəmiz "Altın destan" –"Qızıl dasan" şerində yazır ki:

**Uca dağlar çökmüş, belləri qalmış,**
**Coşqun irmakların seləri qalmış,**
**Xanlar yox meydanda, elləri qalmış,**
**Düşənlər çox , amma qalxan nerədə?**
**Gedəyim arayım: Xaqan nerədə?**



**Nomqon kompleksi bütün xüsusiyyətlərinə görə Bilgə Xaqan və Kültegin komplekslərinə bənzəyir. Nomqon yazısı olan abidənin yuxarı tərəfində əjdaha formasında iki canavar başı həkk olunub. Məlumdur ki, Taspar Xaqan, Bilgə, Kül Tegin və digər abidələrin zirvəsində xaqanlıq rəmzləri olan bu cür əjdaha şəklində, qurd başlı cizgi çəkilmişdir. Nomqon abidəsinin də Orxon abidələri kimi Göytürk dövləti üçün əhəmiyyətli bir abidə olduğu anlaşılır. Arxanqay vadisində 51 məbəd, xanlıq iqamətgahı, kompleksi vardır. Burada alimlərimiz, arxeoloqlarımız üçün 100 ilə çatacaq axtarış yerləri, daş kitabələr, nadir yazılar, sirrlər vardır... Buralar sözün həqiqi mənasında Xaqanların Pantionudur. Ömür istər, oğul istər, dövlət istər ki, bu sirrləri açan olsun!!!**

**Arxanqaya qanadlanıb getmişdim**

Göy türk iqamətgahımızı, daş yaddaşımızı arayıb tapan Darxan Kıdıralı həmin günü belə xatırlayır:

***- Mən Arxanqaya qanadlanıb getmişdim. Monqolustanda o qədər etibarlı, bizi sevən dostlarımız var ki... Bu arxeoloji sirrlərin açılmasında onlar məhz TWESCO-ya üstünlük verdilər. BTA büdcəsində olan vəsaitlə biz əslində Qarabağdakı türk izlərini araşdırmaq fikrindəydik. Sonra qardaş Azərbaycandan dedilər ki, hələ mümkün deyil, azad edilmiş torpaqların əksər hissələri minalarla doludur. Ona göə də həmin vəsaiti Monqolustandakı xaqanlar kompleksinin araşdırmasına sərf etməyi qərara aldıq. Və seçib ekspedisiyaya yığdığımız 40-a yaxın Monqolustandan olan əməkdaşlar, Türk Akademiyasının elmi işçilərinin araşdırmaları sayəsində hədəfimizə yetişdik. Türk yazı tarixini yeniləmişdik. Bildiyiniz kimi, ilk dəfə 1893-cü ildə Vilhelm Tomsen və Vasiliy Rodlov Orhon abidələrini deşifrə edərək , Ötükəndə 'Tengri", 'Türk" kəlmələrini oxumuşdu. Həmin gün özünü sivil adlandıran xalqların mədəniyyətsiz köçərilər hesab etdiyi türklərin, qədim yazı mədəniyyətinə malik olduğu meydana çıxmışdı. TWESCO və Monqolustan Elmlər Akademiyası alimlərinin çalışmaları nəticəsində 130 il sonra biz Ötükəndə Kutluq Xaqana aid daş kitabədə 'Tanrı oğlu" 'Kutluq xaqan" 'türk" 'tümən"... kəlmələrini oxuduq.***

Yazı yazmaq bir Tanrı ruzisidir. Bütün dövrlərin Müqəddəs kitablarında həm qələm, həm kitab, həm də yazı haqqında danışılır. Yazı insana Tanrı tərtəfindən verilən ən böyük istedad və hədiyyədir. Yazı adamı, könül adamı, Türk ellərinin dillərini, elmi cameəsini bir yerə yığan, bir elə tərən Darxan Kıdıralı yazı haqqında söhbət düşəndə deyir ki, dünyadakı bütün mədəniyyətlər yazı ilə, qələmlə başlar. Qələm sahibi olmaq insanın ən böyük xoşbəxtliyidir. Qələmi olan insan daha azad, daha uzaqgörən olur, düşüncələrini ayazlaşdırır, bəyazlaşdırır. Nə mutluyuq ki, ilk yazılarımız da daş yazılar olub. Diriliyimiz onunla başlayıb. Dünyada bir çox dövlətlərin yazısı- əlifbası olmayanda, dünyadakı ilk millətlərdən biri olan türklərin , bizim əcdadlarımızın yazıları var idi. Bizim babalarımız həm tarix yaratdı, həm də tarix yazdı. Əbədi dövlət qurmaq üçün bu tarixləri əbədi daşlara qazaraq yazdı. Məngu El yaratdı. Həmin daş kitabələrdəki yazılarda bir istək var: əbədi güc olan, Tanrıdan mədət alan türklərin həm yazısnı, həm dövlətinin, həm bütün mirasının əbədi olmaq arzusu. O baxımdan bu yazılar bozkırlarda – səhralarda dayandı. Küləklər, çovğunlar, boranlar, leysanlar o yazıları poza bilmədi. Çünki Tanrı xəbəri olan yazılar idilər. İndi deyə bilərik ki, yazı çoxdur, yazan da hər zaman olub. Lakin hər yazı tarixdə daş yazıları qədər qalmayıb. O qədər yazılar unudulub gedir ki... Biz bozkırlarda, boz şöllərdə babalarımızdan qalan o müqəddəs yazıları oxumaq üçün minlərlə kilometr yol qət etdik. Və o məkanları arayıb-araşdırdıq. Məqsədimizə çatdıq.

Ümumilikdə Nomqon kompleksi bütün xüsusiyyətlərinə görə Bilgə Xaqan və Kültegin komplekslərinə bənzəyir. Nomqon yazısı olan abidənin yuxarı tərəfində əjdaha formasında iki canavar başı həkk olunub. Məlumdur ki, Taspar Xaqan, Bilgə, Kül Tegin və digər abidələrin zirvəsində xaqanlıq rəmzləri olan bu cür əjdaha şəklində, qurd başlı cizgi çəkilmişdir. Nomqon abidəsinin də Orxon abidələri kimi Göytürk dövləti üçün əhəmiyyətli bir abidə olduğu anlaşılır. Arxanqay vadisində 51 məbəd, xanlıq iqamətgahı, kompleksi vardır. Burada alimlərimiz, arxeoloqlarımız üçün 100 ilə çatacaq axtarış yerləri, daş kitabələr, nadir yazılar, sirrlər vardır... Buralar sözün həqiqi mənasında Xaqanların Pantionudur. Ömür istər, oğul istər, dövlət istər ki, bu sirrləri açan olsun!!!

- Bu Xaqanlar Pantionunu dünya nə vaxt görəcək, tanıyacaq?

- Böyük işlər səssiz yapılar, səssiz görülər... O daşları sadəcə bir yazı kimi deyil, informasiya, kodlarımıza işləyən bir yazı kimi dəyərləndirməliyik. Bu il türk yazıları üçün önəmli bir ildir. Yəni bu da türklərə yazının Tanrı tərəfindən verilməsinin gözəl bir göstəricisidir.

- Kutluq Xaqanın adından qalan müqəddəs daş yazısının başı üstündə dayanıb Tanrı şükr etdiyiniz həmin o anda, Qazaxıstanın dövlət başçısından bir telefon zəngi aldınız. Bu məqamı danışın, Darxan bəy...

***- Hələ 2022-ci iln mart ayından dövlətimizin başçısı hörmətli Kasım Comərd Tokayev məni iqamətgahına dəvət edib dedi ki, TWESCO rəhbərliyindən ayrılım və dövlətdə mənə yeni bir vəzifə etibar etmək istəyir. Mən Qazaxıstan Respublikasının Prezidentindən vaxt-vədə istəyib dedim ki, yarımçıq qalan işlərim var. Kutluq Xaqanın abidəsini, yeni türk yazılarını axtarışını yekunlaşdırmalı və beş dövlətin xarici işlər nazirlərinin iştirakı ilə Akademiyanın yığılıb qalan problemlərini həll etmək üçün görüş keçirməliyəm. Rica etdim ki, bu işləri tamamlamağa mənə möhlət versin. Payıza qədər vaxt istədim. razılaşdıq. 22 avqust 2022-ci ildə günəş Monqolustandakı Arxanqay dağlarını, vadisini işıqlandırdığı o günorta vaxtı dövlət rəhbərimiz mənə telefon açıb, harada olduğumu soruşdu. Sevincək dedim ki, elə bu dəqiqə yeni tapılmış Kutluq Xaqan kitabının başı üzərində dayanmışam. Orada 'Tanrı". 'Türk oğlu" sözləri yazılıb. Cənab prezident verdiyim xəbərdən çox sevindi, ekspedisiya üzvlərinə təbrikni çadırmağımı söylədi. Sonra isə əlavə etdi ki, verdiyin vədənin vaxtı tamamdır, mən də səni Qazaxıstan Respublikasının İnformasiya və İctimai İnkişaf naziri təyin edirəm.***

**(ardı gələn sayımızda)**